*Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 fevral 2017-ci il № 9 (2126) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycanın bir qarış torpağı belə işğal altında qalmayacaq

### Dövlət başçısının Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı sərəncamı işğalçılara növbəti xəbərdarlıqdır

*"Artıq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpasına da başlanılıb. Biz vətəndaşlarımızı işğaldan azad edilmiş kəndlərə qaytarırıq. Kənd sakinləri bunu böyük məmnuniyyətlə qarşılayırlar. Sakinlər böyük səbirsizliklə Cocuq Mərcanlıya qayıtmağı gözləyirlər. Biz qısa müddətdə bu kəndi yenidən quracağıq. Bunun böyük tarixi əhəmiyyəti var. Biz insanları doğma torpaqlarına qaytaracağıq".*



Bu sözləri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 30-da "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda söyləyib. Dövlət başçısı bildirib ki, bu yaşayış məntəqəsinin infrastrukturunun bərpa edilməsi məqsədilə ilkin olaraq 4 milyon manat vəsait ayrılıb və kənddə yaşayış evləri, bəzi sosial obyektlər tikiləcəkdir.

Bildiyimiz kimi, aprel zəfərinə kimi bu kənddə yaşayış mümkün deyildi, çünki yaxınlıqdakı yüksəklikdə yerləşən erməni silahlı bölmələri daim ərazini atəşə məruz qoyurdular. Amma ötən ilin aprel döyüşlərində Azərbaycan Ordusunun cəbhə xəttində yerləşən qüvvələri tərəfindən aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində bu yüksəklik də düşmən tapdağından azad edildi. Hazırda həmin mövqelər ordumuzun tam nəzarətindədir və hərbi qulluqçularımız döyüş növbətçiliyində ayıq-sayıq dayanıblar.

Uşaq yaşlarımda evimizdə rastlaşdığım bir hadisə məni yaman kövrəltmişdi. Rəhmətlik anam dəhlizin tavanını təmizləyəndə bilmədən qaranquşun yuvasını dağıtmışdı. Onda Novruz bayramına az qalırdı, baharın elçiləri olan bu quşlar Vətənimizə köç etmişdilər. Həmin günün axşamı qaranquş yuvasında gecələyə bilmədi, bu hadisə məni yaman təsirləndirmişdi. O vaxtdan bəri yurdu dağılan insanları həmin qaranquşa bənzədirəm və dərin təəssüflə düşünürəm ki, gör, həmin adamlar nələr çəkirlər. Axı onların illərlə qurub yaratdıqları dağıdılıb, viran qalıb. Bəli, havadarlarının dəstəyi ilə Ermənistanın ötən əsrin sonlarında həyata keçirdiyi işğalçılıq siyasətinin nəticəsi olaraq nə qədər günahsız soydaşımız doğma evəşiklərindən didərgin salınıb. Amma beynəlxalq güclərin illərdən bəri işğala göz yumması adamı lap təəccübləndirir. Görəsən, insan hüquqlarından, haqq-ədalətdən, sülhsevərlikdən bəhs edən super dövlətlərin rəsmiləri niyə işğalçı Ermənistana təsir etmirlər?

(Ardı 3-cü səhifədə)



Başlıca vəzifə döyüş hazırlığını yüksəltməkdir

3-cü səhifədə



Qarlı dağların qüdrətli keşikçiləri

4-cü səhifədə



Gəncliyimiz gələcəyimizdir

5-ci səhifədə



İdeoloji cəbhədə də üstünlük bizimdir

7-ci səhifədə

# Cəbhəboyu zonada yeni hərbi şəhərciyin açılışı olub

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, ordunun döyüş hazırlığının yüksəldilməsi və hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən kompleks tədbirlər davam etdirilir.*



Silahlı Qüvvələrin Ali Baş Komandanının Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ordunun keçən ilin aprel ayında keçirdiyi əks-həmlə əməliyyatına və ümumilikdə fəaliyyətinə yüksək qiymət verməsi şəxsi heyəti yeni uğurlara sövq edir.

Dövlət başçısının ordumuzun nailiyyətləri haqqında söylədiyi xoş sözlər və göstərdiyi yüksək diqqətin nəticəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində görülən işlər hərbi qulluqçular tərəfindən rəğbətlə qarşılanır.



Fevralın 1-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada inşa edilmiş daha bir yeni hərbi şəhərciyin açılışında iştirak edərək qərargah, əsgər yataqxanaları, yeməkxana, tibb məntəqəsi, klub, hamam-camaşırxana, qazanxana kompleksi, sıra meydanı və digər obyektlərlə tanış olublar.

Bildirilib ki, tikintisi 2014-cü ilin iyun ayında başlanan hərbi şəhərcik 35 hektar ərazidə yerləşir. Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa edilib. Burada hərbi hissə növbətçisi, istirahət, qonaq və digər xidməti otaqlar var.

Şəxsi heyətin uzunmüddətli yerləşməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət 9 əsgər yataqxanası tikilib. Burada ideoloji otaq, dəftərxana və digər inzibati otaqlar yaradılıb.

Ailəli və subay hərbi qulluqçular üçün təmirli və kommunikasiya xətləri çəkilmiş iki və üçotaqlı mənzillərdən ibarət 5 yaşayış binası inşa edilib. Mənzillər yumşaq və bərk mebellər, zəruri inventar və televizorla təmin olunub.

Hərbi qulluqçulara ixtisaslı tibbi yardımın göstərilməsi üçün müasir avadanlıqla təchiz edilmiş 30 çarpayılıq tibb məntəqəsi də tikilib.

Şəxsi heyətin dolğun qidalanması üçün mətbəx və təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları olan geniş yeməkxana da istismara verilib. Yeməkxana kompleksində çörək və şirniyyat məmulatlarının bişirilməsi sexi də fəaliyyət göstərir.

Hərbi hissədə qarovul xidmətinin təşkili və aparılması məqsədilə qarovul evi də inşa edilib.

Şəhərcikdə müasir avadanlığın quraşdırıldığı hamam-camaşırxana və qazanxana kompleksi fəaliyyət göstərir. Burada bir buxar qazanxanası, iki transformator yarımstansiyası da istifadəyə verilib. Ərazidə hər birinin həcmi 500 kubmetr olan 2 su anbarları da yaradılıb.

Bundan başqa hərbi hissənin ərazisində 600 yerlik klub və idman şəhərciyi də istifadəyə verilib.

Hərbi şəhərcikdəki şəraitlə tanışlıqdan sonra Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
fotolar
Natiq İSAYEVİNDİR**



# Müdafiə naziri ön xətdə yerləşən bölmələrin hazırlığını yoxlayıb

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiənin ön xəttində yerləşən bölmələrdə olub və üzbəüz düşmən mövqelərini müşahidə edib.*



Ərazidəki əməliyyat şəraiti, bölmələrimizin hazırlıq vəziyyəti, qarşı tərəf barədə məruzə edildikdən sonra şəxsi heyətlə görüşən nazir hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanıb.

Müdafiə naziri çay süfrəsi arxasında əsgərlərlə səmimi söhbət edib və qayğıları ilə maraqlanıb. Sonda nazir ön xətdə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya təşəkkür elan edib və Ali Baş Komandanın adından mükafatlandırıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
fotolar
Natiq İSAYEVİNDİR**



(Əvvəli 1-ci səhifədə)

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycanın bir qarış torpağı belə işğal altında qalmayacaq

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin aprel döyüşləri zamanı Ağdam və Tərtər bölgələrində evləri dağılmış insanlara göstərdiyi böyük qayğının ardınca Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaşayışın bərpa edilməsi istiqamətində atdığı qətiyyətli addım bir daha onu deməyə əsas verir ki, dövlət başçımız hər bir ölkə vətəndaşının, həmçinin qaçqın soydaşlarımızın güclü qarantıdır.

Prezidentin sərəncamı xalqımızın bütün təbəqələrində olduğu kimi, Silahlı Qüvvələrimizin şəxsi heyətində də böyük inam və rəğbət doğurub. Doğma ordumuzun hərbi qulluqçuları bu hadisədən daha da ruhlanıblar və yaxşı başa düşürlər ki, bu gün Azərbaycan xalqı onlara güvənir. Vətəndaşlarımız da artıq birmənalı olaraq dərk edirlər ki, günbəgün hərbi qüdrətini artıran Silahlı Qüvvələrimizin hünər və rəşadəti ilə digər ərazilərimiz də tezliklə işğaldan azad ediləcəkdir.

Aprel döyüşlərinin nəticələrinə qiymət verən dövlət başçısı cəbhə xəttində ictimaiyyətin nümayəndələri və hərbçilərimizlə görüşlərində qeyd etdi ki, aprel zəfəri şanlı tarixi qələbəmizdir və dərsliklərə salınmalıdır. Əslində, aprel döyüşləri düşmənə hərbi gücümüzü nümayiş etdirməklə yanaşı, ölkə vətəndaşlarında sabaha böyük inam doğurub. Cocuq Mərcanlının sakinləri kimi, Şuşanın, Füzulinin, Qubadlının, bir sözlə, işğal altında olan digər rayonların sakinləri də inanırlar ki, bir gün onlar da doğma torpaqlarına qayıdacaqlar. Hər bir azərbaycanlı dövlətimizin qüdrəti və ordumuzun gücü ilə fəxr edir, inanır ki, Cocuq Mərcanlının bərpası böyük qayıdışın başlanğıcıdır və tezliklə digər ərazilərimiz də kəndbəkənd işğaldan təmizlənəcək və öz sakinlərini ağuşuna alacaq.

Heç vaxt yadımdan çıxmır, bir dəfə Ağdam bölgəsinə ezamiyyətə gedəndə magistral yolun qarşısını kəsən manea diqqətimi çəkmişdi. Hərbi hissənin zabiti demişdi ki, bu yol Ağdama, Şuşaya, Xankəndiyə aparan yoldur. Adını, soyadını unutduğum hərbçi bu sözü deyəndə dərindən ah çəkdiyini hiss etmişdim. Tam əminəm ki. aprelin əvvəllərində əldə etdiyimiz hərbi uğurlarımız yenə də təkrar olunacaq, bu gün Lələtəpədə, Bayraqtəpədə yüksələn bayrağımız tezliklə işğaldan azad olunacaq yurd yerlərimizdə də dalğalanacaq.

Bayraq sevgisi bir ayrı sevgidir, çünki dövlətin müstəqilliyini, bir millətin varlığını özündə təcəssüm etdirir. Dövləti, dövlətçiliyi ilə fəxr edən hər adam üçün bayraq müqəddəsdir. Bir tədbirdə, mərasimdə meydana bayraq gətiriləndə qeyri-ixtiyari olaraq hamı ayağa qalxır, bayrağa hörmət və ehtiramını ifadə edir. Mötəbər idman tədbirlərində dövlətlər arasında bayrağımız yüksələndə adamın sevincdən gözləri yaşarır. Lələtəpədə bayrağımızı görəndə qürurumdan yaranan göz yaşımı əsgərlərimizdən gizlədə bilmədim. Həmin anda yanımdakı neçə gənc döyüşçünü bağrıma basıb "Silah tutan əlləriniz, nişan alan gözləriniz var olsun!" dedim.

Azərbaycan dövlətinin rəhbərliyi dəfələrlə bəyan edir ki, münaqişənin həllində ölkəmizin ərazi bütövlüyü müzakirə hədəfi ola bilməz. Çünki Azərbaycan azad və müstəqil dövlətdir, Dağlıq Qarabağ da onun ayrılmaz hissəsidir. Əgər qarşı tərəf beynəlxalq hüquqla tənzimlənən ərazilərimizi geri qaytarmasa, onda hərb variantı qaçılmazdır. Bir sözlə, Azərbaycan dövləti münaqişəni istənilən vasitələrlə həll etməyə hazırdır, yalnız bir şərtlə ki, doğma torpaqlarımız son qarışına kimi geri qaytarılsın. Əks halda, qüdrətli Silahlı Qüvvələrimizin şəxsi heyəti öz sözünü deyəcəkdir. Məhz 2016-cı ilin aprelində olduğu kimi...

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Başlıca vəzifə döyüş hazırlığını yüksəltməkdir

*"N" hərbi hissəsində hər şeydən öncə böyük quruculuq işlərinin şahidi olduq. Azərbaycan rəhbərliyinin diqqəti və qayğısı ilə Silahlı Qüvvələrimizdə gedən dəyişiklikləri burada əyani surətdə gördük. Bütün bunlar qulluqçularımızı daha böyük həvəslə xidmət etməyə, Vətənimizin, dövlətçiliyimizin müdafiəsində daha inamla dayanmağa ruhlandırır.*

- Ümumiyyətlə, hərbi hissə qarşısında duran başlıca vəzifə döyüş hazırlığını durmadan artırmaq və verilən tapşırıqları yerinə yetirməyə həmişə hazır olmaqdır, - bizimlə söhbətində zabit Oruc Abdullayev deyir. - Bunun üçün yuxarı komandanlıq tərəfindən planlaşdırılan kompleks döyüş hazırlığı tədbirləri plana uyğun şəkildə həyata keçirilir. Bölmələrin şəxsi heyəti döyüş və mənəvi-psixoloji hazırlığını möhkəmləndirmək məqsədilə məşğələlərə cəlb olunur, gündüz və gecə dərslərində, taktiki təlimlərdə öz ustalıqlarını təkmilləşdirir.

Məlum olduğu kimi, Silahlı Qüvvələrdə tədris ili artıq bir neçə gündür ki, başlayıb. Bütövlükdə ordumuzun bütün hərbi hissələrində tədris ili "Həyəcan" siqnalı ilə şəxsi heyətin çıxışı ilə yadda qaldı. Öncə bölmələrdə döyüş hazırlığı planına müvafiq olaraq fərdi hazırlıq məşğələlərinə start verilib, sonra isə heyət, taqım, bölük və daha böyük strukturlar tərkibində şəxsi heyət hərbi peşə və vərdişlərini möhkəmlədəcək, qazandığı nailiyyətləri bir qədər də artıracaq.

Qeyd etmək lazımdır ki, hərbi hissə özünəməxsus döyüş yolu keçib. Müharibə illərində düşmən havadarlarına arxalanaraq ərazilərimizə qarşı təcavüzünü genişləndirməkdəydi. Həm Qarabağda, həm də Ermənistanla sərhəd ərazilərdə döyüşlər səngimək bilmirdi.

Mürəkkəb bir dövrdə, 1992-ci il fevralın 21-də formalaşdırılmış alayın bölmələri artıq iki ay sonra ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərə atılmış, Ağdam, Ağcabədi, Xocavənd, Əskəran, Ağdərə rayonlarında hərbi əməliyyatlarda iştirak etmişdi.

Hərbi hissənin döyüş yolu keşməkeşli olsa da, qürur doğuran məqamlar da yetərincədir. Qanlı döyüşlərdə cəsur Azərbaycan övladları fədakarlıq göstərərək Vətənimizin ən yüksək mükafatları ilə təltif edilmişdilər. Onlardan on nəfər, o cümlədən hərbi hissənin şəhid olmuş komandiri Şirin Mirzəyev Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, 24 nəfər "Azərbaycan Bayrağı" ordeni, 18 nəfər isə "İgidliyə görə" medalı ilə mükafatlandırılıb. Bu cəsur Vətən oğullarının rəşadəti indi hərbi hissənin döyüşçüləri üçün örnəkdir. O zamandan keçən dövrdə Azərbaycan Ordusu döyüş hazırlığı, maddi-texniki baxımdan böyük nailiyyətlər qazanıb. Hərbi hissədə də ötən müddətdə xeyli dəyişikliklər baş verib.

Zabit Möhübbət Tağıyevlə birlikdə bölmələri gəzdik, şəxsi heyətin gün ərzində fəaliyyətilə tanış olduq.



Zabit Tağıyev hərbi hissənin bacarıqlı, nümunəvi hərbçilərindəndir, xeyli vaxtdır ki, Silahlı Qüvvələrdə xidmət edir. Məhz nümunəvi xidmətinə görə, onun şəkli hərbi hissənin şərəf lövhəsini bəzəyir.

- Bildiyiniz kimi, hər bir hərbi qulluqçunun, bölmənin mənəvi-psixoloji vəziyyəti, əslində, şəxsi heyətin qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirilməyə nə qədər hazır olmasını göstərir, - bizimlə söhbətində zabit Tağıyev bildirdi. - Hazırda bölmələrin şəxsi heyəti döyüş hazırlığı planına uyğun olaraq məşğələlərə cəlb edilir. Müdafiə Nazirliyi tərəfindən müəyyən edilmiş gün rejimi qaydalarına əməl edilməklə şəxsi heyət döyüş hazırlığı planında nəzərdə tutulan tədbirləri ardıcıl yerinə yetirir.

Döyüşçülərimiz indi fərdi bacarıqlarını artırmaqla məşğuldurlar. Hərbi hissənin hazırlıqlı zabitləri qrup rəhbərləri təyin ediliblər. Şəxsi heyətin bilik və bacarığının yüksəldilməsi ilk növbədə zabitlərin peşəkarlığından asılıdır. Öz ixtisasını ürəkdən sevən zabitlər çalışırlar ki, tabeliyindəki döyüşçüləri taktiki, ixtisas, atəş hazırlığı baxımından mükəmməl öyrətsinlər. Fərdi hazırlıq mərhələsində hər bir ixtisasçının silah və texnikanın taktiki-texniki xüsusiyyətlərini ayrıca mənimsəməsi komandanlığın diqqət mərkəzindədir.

Manqa hazırlığı mərhələsində isə onlar heyət şəklində döyüş hazırlığı planında nəzərdə tutulmuş proqram çərçivəsində taktiki bacarığını yüksəldəcəklər.

Bütün bölmələrdə qrup rəhbərləri döyüş hazırlığı planında nəzərdə tutulmuş mövzulara uyğun olaraq dərs keçirlər. İxtisas məşğələlərində şəxsi heyət peşə vərdişlərini yüksəltməklə məşğul olur. Çöl məşğələlərində qrup rəhbərlərinin nəzarətilə çavuş və əsgərlər praktik baxımdan bilik və vərdişlər qazanır, öz döyüşçü peşələrinə mükəmməl yiyələnməyə çalışırlar.

Hərbi hissənin nümunəvi hərbçilərindən söhbət düşəndə mayor Möhübbət Tağıyev, kapitan Nail Daşdəmirov, baş leytenant Eşqin Tağıyev, gizirlər Tapdıq Qurbanəliyev, Etibar Nəsirov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şamil Məmmədov, əsgər Saməddin Xəlilov və başqalarının adları yada düşür. Bu hərbi qulluqçular öz davranışı, intizamı və xidmət prosesində qazandıqları nailiyyətlərə görə bütün şəxsi heyətə nümunədirlər.

Doğrudan da, hərbi hissələrimizdə hərbi kollektivin qarşısında duran əsas vəzifə döyüş hazırlığına yiyələnmək, silah və texnikadan istifadə etməyi mükəmməl öyrənmək, taktiki və ixtisas baxımından peşə bacarığını yüksəltməkdir. "N" hərbi hissəsində bunun bir daha şahidi olduq.

Sevindirici haldır ki, bölmələrə həvalə edilmiş hərbi texnika, avtomobillər, silahlar təzə və müasirdir. Döyüş hazırlığı dərsləri vaxtında keçirildiyindən şəxsi heyət qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə qadirdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

AZƏRBAYCAN ORDUSU

*Vətəni qorudun - adındı, qorumadın - yadındı, - illərin sınağından çıxan bir deyimdi. Gecə-gündüz demədən doğma Vətənin keşiyində sayıq dayanan mərd oğullarla qürur duyuruq. Bu oğullar olmasaydı, söz yox ki, müstəqil məmləkətimiz də mövcud olmazdı.*

*Neçə illərdir yurdumuza uzanan yad əllər dincliyimizi, əmin-amanlığımızı əlimizdən alıb. Bədnam qonşumuz olan Ermənistanla təmas xətti boyu əsgərlərimiz Vətənin keşiyində dayanıblar. Onlar düşmənin işğal etdiyi torpaqlarımızı azad etmək üçün döyüşə hazırdılar.*

*Ön xətdən reportaj*

# Qarlı dağların qüdrətli keşikçiləri





Bu günlərdə düşmənlə üz-üzə olan dağlıq ərazilərdə yerləşən mövqelərə gedirik. Yolumuz uzun, həm də enişli-yoxuşludu. Başı qarlı dağların qoynunda ürəkaçan, xoş bir mənzərə var. Kəndlərdən ötüb keçirik. İxtiyarsız yol getdiyimiz avtomobildən ətrafı seyr edirik. Cəbhə bölgəsində bir-birindən yaraşıqlı evlər sıralanıb. 1990-cı illərin əvvəllərində bu yerlərdə qızğın döyüşlər getsə də, indi müharibənin törətdiyi fəsadlar aradan qaldırılıb. İnsanlarda gələcəyə böyük ümid yaranıb, kəndlilər şəxsi təsərrüfatları ilə arxayın məşğuldular. Çünki düşmənlə sərhəddə Vətənin mərd, qətiyyətli oğulları dayanıblar.

Hərbi hissənin qərargahında ilk görüşdüyümüz zabit Eldəniz Nəsirov deyir ki, onların başlıca vəzifəsi düşmənlə sərhəd boyu mövqelərimizi qorumaqdı. "Bunun üçün gərəkli olan bütün imkanlardan istifadə edirik. Qarşıda düşmənin mövqeləri uzanır. Yağılara aman verməri ki, səngərdən bir addım belə irəli keçsinlər. Dərhal layiq olduqları cavabı alacaqlar. Əvvəllər bir neçə dəfə ermənilər bu istiqamətdə fəallaşmaq istəyiblər, lakin igid oğullarımızın sayıqlığı nəticəsində düşmən məqsədinə nail ola bilməyib." Cəsur oğulların xidmət etdikləri mövqelərə getmək məqsədimizi bildirəndə zabit yolların buz bağlamasına baxmayaraq etiraz etmədi.

Mayor Rüstəm Məmmədovla ön xəttə yola düşürük. Neçə illərdir burada xidmət edən zabit əraziyə yaxşı bələddir. Bizi düşməndən təhlükə gözlənilən yerlərlə tanış edir. Deyir ki, yüksəklikdə elə yerlər var, orada səngərdən kənarda hərəkət etmək mümkün deyil.

Gəldiyimiz post dağın zirvəsində yerləşir. Qarşıda bir neçə təpədə isə düşmənin səngərləridir. Çavuş İlham İbrahimov döyüş postunda heç bir hadisənin baş vermədiyi barədə məlumat verdi. Post başçısı qarşıdakı düşmən haqda yetərincə məlumatlıdır. Mövqedə həmişə sayıq olduqlarını bildirdi. İlk baxışdan qoçaq, hazırcavab təsiri bağışlayan kiçik komandirlə tanış olduq. Çavuşun müddətli həqiqi hərbi xidməti də cəbhə bölgəsində keçib. İndi də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənin müdafiəsində dayanmaqdan qürur duyduğunu söylədi. Onun başlıca məqsədi, amalı ermənin işğalı altında olan torpaqlarımızı azad görməkdi. Bunun üçün istənilən an döyüşə getməyə hazır olduğunu bildirdi. Tabeliyində olan əsgərlərin döyüş hazırlığına gəlincə, çavuş İ.İbrahimov dedi:

- Komandiri olduğum manqa ilə gördüyümüz əhəmiyyətli yüksəkliyi düşməndən qorumaq başlıca vəzifəmizdir. Əsgərlərin döyüş hazırlığını artırmaq həmişə diqqətimizdə olan əsas məsələdir. Manqanın dayaq məntəqəsində istehkam qurğularının yararlığını təmin etmişik. Fasiləsiz müşahidə təşkil olunub.

Əvvəllər bir neçə dəfə düşmən postumuza soxulmağa cəhd göstərib. Lakin döyüşçülərimizin sayıqlığı sayəsində məqsədinə nail ola bilməyib. Vaxtında düşməni aşkar edib geri oturda bilmişik.

Burada bizdən gecə-gündüz sayıqlıq tələb olunur. Yaxşı bilirik ki, hazırlıqlı olmasaq, düşmən fürsət tapan kimi bəd niyyətlərini həyata keçirəcək. Ermənilərin işğal etdikləri torpaqları geri alacağıq. Hər an Ali Baş Komandanımızın əmrini gözləyirik.

Postda görüşdüyümüz hər bir əsgərin üzündə qorxmazlıq, cəsarət var. Onlar düşmənlə üz-üzə dayanmaqla Vətənin məğrur keşikçiləri olduqlarını əməli fəaliyyətləri ilə sübuta yetirirlər. Baş əsgər Siyasət İsayev Cəlilabad rayonundan hərbi xidmətə çağırılıb. Bir ildən artıqdır ki, bu hərbi hissədə xidmət edir. Səngər, döyüş postu onun üçün müqəddəsdir. Çünki burada igid oğullarımız düşmənə aman verməyiblər. O da sələflərinin yolunu layiqincə davam etdirəcəyinə söz verib.

Həmsöhbət olduğum digər əsgər Rəşad Abuzadə də qarşıdakı düşmən haqda yetərincə məlumata malikdir. Məqsəd və amalı postda ayıq-sayıq dayanmaqla mövqelərimizə basqı etmək istəyən mənfur ermənilərin vaxtında aşkar edib məhv etməkdir. Görüşüb söhbət etdiyimiz digər döyüşçülərin də hər biri ölkəmizin ayrı-ayrı bölgələrindəndir. Pulemyotçu İsmayıl Məmmədov Yevlaxdan, qumbaraatan Ramin Cabbarov Bakı şəhərindən, qumbaraatan köməkçisi Azər Akqubayev Balakəndən, atıcı Xankərəm Sadıqov Cəlilabaddan ordu sıralarına çağırılıblar. Onların başlıca məqsədi ölkəmizin ərazi bütövlüyünü tezliklə təmin etmək üçün işğalda olan yurd yerlərimizi azad etməkdir.

Uca dağlar qoynunda qışın sazağında xidmət aparmağın nə qədər çətin və məsuliyyətli olduğunu yaxşı dərk edirik. Çoxdan yağan qarın donu açılmamış yenidən şaxta düşür. Müşahidə fasiləsiz aparılır. Düşmən bir an belə nəzarətsiz qalmır. Döyüş növbəsindən sonra istirahət etmək üçün qazmada yaradılan səliqə-sahman könül açır. Hər şey adama xoş gəlir. Yaradılan hər cür şərait, söz yox ki, yüksək xidmətin təşkili üçündür. Mayor Rüstəm Məmmədov bütün postlarda eyni şəraitin olduğunu söylədi.

Beləcə, bir döyüş postunda cəsur oğullarımızla, onların xidmət şəraiti ilə yaxından tanış olandan sonra ayrılmaq məqamı çatır. Hər kəsə xidmətdə uğurlar arzulayıb ayrılırıq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**



## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında illik tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması sahəsində 2017-ci il üçün birgə tədbirlər planı imzalanıb. Sənədə əsasən, keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan idarələrdə, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə vətəndaşların, hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə baxılması, eləcə də gənc əsgərlərlə fərdi tərbiyə işinin təşkili, şəxsi heyətin ümumbəşəri, milli dəyərlər, hərbi vətənpərvərlik və tarixi ənənələr ruhunda tərbiyə edilməsi, hərbi kollektivin möhkəmləndirilməsində kiçik komandirlərin rolu və bir sıra digər mövzularda mühazirələr oxunacaq.

Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçuların və ərazi hərbi prokurorlarının iştirakı ilə bir sıra mövzularda görüşlərin keçirilməsi də nəzərdə tutulub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Düşmən təxribatı nəticəsində hərbi qulluqçumuz yaralanıb

Fevralın 1-də Ermənistan silahlı bölmələri avtomatik silahlardan və qumbaraatanlardan da istifadə etməklə cəbhə xəttində növbəti dəfə atəşkəs rejimini pozub.

Bölmələrimiz tərəfindən təxribatın qarşısı alınarkən düşmən atəşindən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş İsayev Rauf Məhəmməd oğlu yaralanıb.

Ona təxirəsalınmaz tibbi yardım göstərilib. Hazırda vəziyyəti sabitdir, həyatına təhlükə yoxdur.

Müdafiə Nazirliyi bildirir ki, düşmənin bu cür hərəkətlərinə qarşı lazımi cavab tədbirləri görüləcəkdir.

***2 fevral 2017-ci il.***

Azərbaycan Silahlı Qüvvələri bölmələrinin fevralın 1-də cəbhə xəttində guya təxribat törətməsi və itki verməsi barədə erməni tərəfinin yaydığı məlumat yalandır.

Cəbhə xəttində heç bir aktiv döyüş toqquşması baş verməyib.

Erməni tərəfinin yaydığı xəbərdə adı çəkilən Elnur Hüseynzadə mütəmadi olaraq hərbi intizamı pozması və xidmətə çıxmaması səbəbindən bir müddət əvvəl Silahlı Qüvvələrdən tərxis olunub və hazırda hərbi xidmətdə deyil.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 fevral 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 10 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Gəncliyimiz gələcəyimizdir

## 2 Fevral Gənclər Günü Müdafiə Nazirliyinin hərbi hissə və bölmələrində qeyd edilib

*Tədbirlərdə öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*



Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində "Gənclik ömrün baharıdır" adlı ədəbi-bədii tədbir keçirilib. Bir neçə gün öncə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin açılışında iştirak etdiyi hərbi şəhərcikdə əsl bayram ab-havası vardı.

Tədbiri əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev açıq elan etdi.

Tədbirin aparıcısı qeyd etdi ki, Ulu Öndər siyasi hakimiyyəti dövründə bütün sahələrə, o cümlədən Azərbaycan gəncliyinə xüsusi diqqət yetirib.



Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərovun şəxsi heyətə Gənclər günü ilə bağlı təbriki oxundu.

Təbrikdə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu fikirləri də yer alıb: "Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Onlar Vətəni qoruyurlar, düşmənlə üzbəüz mövqelərdə dayanırlar. Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər".

Polkovnik-leytenant Mehman Kərimov çıxış edərək ölkəmizdə gənclər siyasətinin uğurla həyata keçirilməsindən danışdı.

Sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin hərbi qulluqçusu gizir Leyla Qəhrəmanova çıxış etdi. Bildirdi ki, gənclik illəri insan ömrünün ən gözəl çağlarıdır. "Azərbaycan gəncləri dünyanın müxtəlif ölkələrində elm, təhsil, mədəniyyət, idman və s. sahələrdə ölkəmizi layiqincə təmsil edirlər."

O, ötən ilin aprelində cəbhədə gedən döyüşlərdən söz açaraq bildirdi ki, Azərbaycan əsgəri qısa bir müddətdə düşmənə sarsıdıcı zərbələr vurdu, qəhrəmanlıq tarixi yazdı və minlərlə hektar ərazilərimiz ermənilərdən azad edildi.

Rəsmi hissədən sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının çıxışları oldu. Ansamblın solistləri əsgər anası Leyla Qəhrəmanova "İgidlər", Elçin Məmmədov "Bu əsgin adı Vətən", Günay Qasımova "Azərbaycan", Səbinə Qasımova "İgiddir Əhməd" və başqa vətənpərvərlik mahnılarını oxudular. Ansamblın rəqs qrupunun təqdim etdiyi "Dəcəl qızlar rəqsi" və "Şərur yallısı" da maraqla qarşılandı. Gizir Rafiq Qasımov isə sazda könülləri oxşadı.

* * *

"N" hərbi hissəsində də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə tədbir keçirildi.

Tədbiri açıq elan edən polkovnik-leytenant Nəsrəddin İsgəndərov bu günün onlar üçün ikiqat sevincli olduğunu, hərbi hissənin yaranmasının 25-ci ildönümünə təsadüf etdiyini qeyd edərək bildirdi ki, 2 fevralın Gənclər Günü kimi elan olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. "Məhz onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda dövlət-gənclər siyasətinin əsası qoyuldu. Həmin vaxtdan da ölkə gəncləri onun diqqət və qayğısını daim öz üzərlərində hiss etmişlər. 1996-cı il fevralın 2-də Ulu Öndərin dəstəyi ilə gənclərin ilk forumu keçirildi. 1997-ci ildən isə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. Bu, Ulu Öndərin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi... Ümummilli Liderimiz "Azərbaycan gəncləri sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir", deyərək daim gənc nəslin inkişafına qayğı göstərib".

Həmçinin qeyd olundu ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan gəncliyinin inkişafını diqqət mərkəzində saxlayaraq bu sahədə dahi rəhbərin siyasi kursunu layiqincə həyata keçirir. Hazırda dövlətin gənclər siyasətinin uğurla həyata keçirilməsi, onlara qayğı və diqqətin artırılması həyatımızın bütün sahələrində özünü göstərir. Gənclərimiz Silahlı Qüvvələrimizdə nümunəvi xidmət edərək ölkə başçımızın etimadını doğruldurlar. Aprel döyüşlərində ordumuzun qazandığı qələbəyə də Azərbaycan gəncliyi öz töhfəsini verib.

Mərkəzi Zabitlər Evinin əməkdaşı Mədinə Məmmədova çıxışında bildirdi ki, hər bir ölkənin gələcəyi onun gəncliyindən asılıdır. "Bütün dövrlərdə gəncliyin mənəvi və fiziki sağlamlığı cəmiyyət üçün önəmli olub. Gənclik gələcəyin özü, böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir."



Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının maraqlı konsert proqramı ilə başa çatdı.

* * *

Bu günlərdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan gənclərinin bir qrup fəal nümayəndəsi ilə veteranların görüşü keçirilib. Tədbirdə ictimaiyyətin və Silahlı Qüvvələrin nümayəndələri də iştirak ediblər.

Böyük Vətən, Qarabağ, Əfqanıstan müharibələri, Əmək və Silahlı Qüvvələr veteranları, gənclərin, ziyalıların və media nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, belə tədbirlərin keçirilməsinin əsas məqsədi gənclərin vətənpərvərlik tərbiyəsinə töhfə verməkdir.

Gənclərin Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirakını qeyd edən polkovnik dövlətimizin dinamik surətdə inkişaf edən ölkələr sırasına çıxmasında gənclərin rolunu qeyd etdi.

İkinci Dünya müharibəsinin iştirakçısı Fatma Səttarova, Milli Məclisin deputatı Adil Əliyev, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, veteranlar və gənclər təşkilatlarının nümayəndələri çıxış edərək gənclərin ölkə həyatındakı rolundan, Azərbaycan gənclərinin vətənpərvərliyindən, rəşadət və mərdliyindən söhbət açdılar.

Veteranlar adından Azərbaycan gənclərinə müraciət ünvanlandı.

**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# Ən böyük töhfə

Mən tələbəyəm. Arzuladığım ixtisas üzrə təhsil alıram. Oxuduqlarımdan öyrənmişəm ki, istənilən dövrdə dövlətin, dövlətçiliyin qorunmasında gənclər böyük şücaətlər göstərib. Bu faktın nə qədər real olduğuna əmin olmaq üçün təkcə Şah İsmayıl Xətaini xatırlamaq kifayətdir. Böyük Səfəvi hökmdarı yeniyetməliyində dünyanı heyrətə salmışdı. Onun haqqında yazıblar ki, 14 ildə 14 dövləti fəth eləyib. Digər tarixi şəxsiyyətlərimiz də böyük əməlləri ilə şöhrət qazanıb...

Ermənistanın Azərbaycandan torpaq iddiası elan edilməmiş müharibəyə səbəb oldu. Dağlıq Qarabağda, Ermənistanla sərhəd rayonlarında müharibə başladı. Düşmənlə döyüşənlərimiz arasında gənclər daha çox idi. Yəni, gənclər el-obasını, bu anlamda Vətəni müdafiə edirdi. Neçəsi şəhid oldu, neçəsi ağır yaralandı, neçəsi sağlamlığını itirdi. Yaşı 50-ni aşan o vaxtkı gənclərlə də, indi ordu sıralarında xidmət edən əsgərlərimizlə də fəxr edirik...

Qəhrəmanlar həmişə xalqın qüruru olub. Qəhrəmanın əməli xalqın əməlidir. Vəzir Orucov, Yusif Mirzəyev, Mübariz İbrahimov, Samid İmanov və başqaları da Vətən üçün şəhid oldular. Onlar da gənc idilər. Onların qəhrəmanlığı bir həqiqətin təsdiqidir: azərbaycanlı gənc Vətənini sevir, Vətənini qoruyur. Bu təsdiq biz gənclər üçün örnəkdir. Azərbaycan əsgəri adını qəhrəmanlığın sinonimi bilirik. Və haqlıyıq. Aprel döyüşləri də təsdiqlədi ki, Azərbaycan əsgəri torpaqlarını işğaldan azad etməyə qadirdir. Belə əsgərlərlə, əlbəttə, qürurlanmalıyıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda mübariz gənc nəsil yetişir" sözləri düşüncələrimizi daha da mətinləşdirib. Ulu Öndərimizin dediyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" - kəlamı həyat fəlsəfəmizin mahiyyətidir. Gənclər Gününə bu qədər önəm verən dövlətimizin başçısı gənclərlə fəxr edir. Bu, gənclərimizə dövlət qayğısının təzahürüdür. Biz gənclər Vətəni sevirik; himnimizdə deyildiyi kimi, Vətənə görə biz də "can verməyə hazırıq".

Gələn il bayramlarımızı işğaldan azad edəcəyimiz torpaqlarda keçirəcəyimizə varlığımla inanıram. Azərbaycan əsgərinin qələbəsi Gənclər Gününə də ən böyük töhfə olacaq!..

**Şəbnəm BEHBUDZADƏ**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**
**1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.**
**2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.**
**3. XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi.**
**4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.**

**Mövzu:** *Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri.*

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Qədim Azərbaycanda dövlətçilik ənənələri*

Azərbaycan ərazisində məlum olan ilk dövlət qurumu Arattadır. Aratta ölkəsi Cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiya gölünün cənub və cənub-şərq sahilini əhatə edirdi.

E.ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisində Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlətin yaranması üçün şərait yaranır və yeni dövlət Manna adlanır. E.ə. VI əsrin əvvəllərində qədim Azərbaycanın Manna dövləti süquta uğradı.

Bundan sonra Araz çayından şimalda və cənubda yerləşən Azərbaycan torpaqları müstəqil hakimiyyət idarəsini saxlamaqla İran Əhəmənilər sülaləsindən asılı olmuşdur.

Makedoniyalı İsgəndərin dövründə Urmiya gölü hövzəsində müstəqil padşahlıq Adərbayqan (Atropatena) dövləti idi. Tarixi mənbələrdə Adərbayqan ilə əlaqədar hadisələr e.ə. III əsrin sonuna aid qaynaqlarda yad edilir.

Azərbaycanın Araz çayından şimalda yerləşən torpaqları Albaniya adlanırdı. Albaniya şimalda indiki Dağıstan, qərbdə Gürcüstan, cənub və cənub-qərbdə Adərbayqan ilə həmsərhəd idi. Albaniyanın paytaxtı əvvəl Qəbələ, sonra isə Bərdə olmuşdur. Albaniya dövləti VII əsrin sonlarına, Azərbaycan ərəblər tərəfindən işğal edilənə qədər öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

### *Orta əsrlər Azərbaycan dövlətləri haqqında*

**Şirvanşahlar.**
Bu dövlətin yaradıcısı Heysəm ibn Xalid olmuşdur. O, Şirvanın birinci rəsmi məliki Yəzid ibn Məzyədin nəvələrindən olduğu üçün sülalə Məzyədilər adlanırdı. Məzyədilər hakimiyyətinin ilk dövründə Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Müxtəlif dövrlərdə Şəki, Beyləqan və Bərdə Şirvanşahlar dövlətinin tabeliyinə keçmişdi. Dövlətin paytaxtı Şamaxı şəhəri idi.

Köçəri tayfaların hücumları, qonşu feodal dövlətləri ilə müharibələr, sülalə üzvləri arasında hakimiyyət üstündə mübarizənin güclənməsi, əhali arasında feodal zülmünə qarşı iğtişaşların artması nəticəsində XI əsrin 70-80-ci illərində Məzyədilər sülaləsi süquta uğradı.

**Sacilər dövləti.**
IX əsrdə xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərindən biri də paytaxtı Ərdəbil şəhəri olmaqla Sacilər dövləti (889-942) idi. Yeni sülalənin banisi xilafət ordularında döyüşlərdə dəfələrlə sınaqdan çıxmış adlı-sanlı türk sərkərdəsi Əbu Sac Divdad idi. Sacilər sülaləsinin hakimləri içərisində ən nüfuzlusu olan Yusifin dövründə Sacilər dövləti istiqlaliyyət qazandı. Azərbaycan torpaqları mərkəzləşdirildi. Yusifin ölümündən sonra hakimiyyət əldən-ələ keçdi. 942-ci ildə Sacilər sülaləsini Salarilər əvəz etdilər.

**Salarilər dövləti.**
Dövlətin yaradıcısı Mərzuban ibn Məhəmməd Gilan vilayətindəki Salarilər tayfasına mənsub olduğundan dövlət Salarilər adlanırdı. Salarilər dövlətinin (942-981) də paytaxtı Ərdəbil şəhəri idi.

**Şəddadilər dövləti.**
X əsrin II yarısında Azərbaycanda meydana gəlmiş müstəqil feodal dövlətlərdən biri də paytaxtı Gəncə olan Şəddadilər dövləti idi. Onun ərazisi əsasən Kür və Araz çayları arasındakı torpaqları əhatə edirdi. Şəddadilər dövləti şimal tərəfdən Şəki və Kaxetiya çarlığı, cənubdan Rəvvadilər dövləti ilə həmsərhəd idi.

**Rəvvadilər dövləti.**
981-ci ildə Əhər (Qaradağ) hakimi Əbülheyca Rəvvadi Salarilər dövlətinin hakimi İbrahimə tabe olmaqdan boyun qaçırdı, onunla mübarizə aparaq qalib gəldi və hakimiyyəti ələ aldı. Beləliklə, Rəvvadilər dövləti rəsmən yarandı. Salarilər dövlətinin əlində olan Azərbaycan torpaqları Rəvvadilərin hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı Ərdəbildən Azərbaycanın qədim şəhəri Təbrizə köçürüldü.

Səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycana gələrək 1065-ci ildə Təbrizə səlcuq əmiri təyin etdi. Bununla da Rəvvadilər dövləti öz müstəqilliyini itirərək, səlcuqların hakimiyyəti altına keçdi.

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövləti arasında sabit siyasi və iqtisadi əlaqələr zəif idi. Əksinə, onlar bir-biri ilə çəkişirdilər.

Belə bir şəraitdə Orta və Yaxın Şərqdə Səlcuqilər imperiyası yarandı. Orta Asiya, İran, İraq, Suriya, Misir, Kiçik Asiya, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycan da Səlcuqilərin hakimiyyəti altına keçdi. Səlcuqilər dövlətinin banisi oğuz tayfasına mənsub Səlcuq adlı cəsur və cəngavər şəxs idi. Səlcuq bir əsrdən artıq ömür sürmüş, islam dinini qəbul etdikdən sonra bu dinin bütün türklər arasında yayılması uğrunda mübarizə aparmışdır.

119 il fəaliyyət göstərmiş səlcuqilər dövləti türkdilli xalqların hərbi-siyasi, sosial-iqtisadi və mənəvi inkişafına güclü təsir göstərmişdir.

**Eldəgizlər dövləti.**
XII əsrin 20-30-cu illərində Səlcuq sultanları arasında hakimiyyət uğrunda mübarizə nəticəsində mərkəzi hakimiyyət zəiflədi. XII əsrin 30-cu illərində Azərbaycan Atabəylər dövləti yarandı. Bu dövlətin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və uzaqgörən dövlət xadimi Şəmsəddin Eldəgiz Eldəgizlər sülaləsinin (1136-1225) banisi idi.

XIII əsrin əvvəllərində Mərkəzi Asiyada güclü hərbi qüdrətə malik Monqol dövlətinin Azərbaycana işğalçı yürüşləri ərəfəsində Azərbaycan ərazisində Atabəylər, Şirvanşahlar, Marağada isə Rəvvadilər nəslindən olan Ağsunqurilər sülaləsi (1108-1227) hakimiyyət sürürdü. XII əsrin sonunda Eldəgizlər sülaləsi daxilində gedən mübarizə dövlətin əsaslarını sarsıdırdı.

1256-cı ildə monqol şahzadəsi Hülakü xan Azərbaycanı, 1258-ci ildə isə Bağdadı işğal edərək yeni zəbt edilmiş ərazilər hesabına mərkəzi Azərbaycan olmaqla Hülakülər dövləti yaratdı. Monqolların hakimiyyəti dövründə Şirvanşahlar dövləti Hülakü dövlətinə tabe idi.

Yaxın və Orta Şərqin hərbi-siyasi tarixində Qaraqoyunlu və Ağqoyunlu tayfaları Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamışdır. Bu tayfalar əsasən qoyunçuluqla məşğul olurdular. Qaraqoyunlu tayfa ittifaqının bayrağında qara qoçun, Ağqoyunlu tayfa ittifaqının bayrağında isə ağ qoçun təsviri vardı. Buna görə də həmin tayfaların biri Qaraqoyunlular, digəri isə Ağqoyunlular adlanırdı.

XIV əsrin ikinci yarısında Azərbaycanın qərbində yaranan Qaraqoyunlu dövləti öz daxili quruluşuna görə möhkəm deyildi.

**Ağqoyunlular dövləti.**
Uzun Həsənin hakimiyyəti dövründə (1453-1478) möhkəmlənmiş və müstəqil siyasət yeritmişdir. Ağqoyunlu dövləti özünün ən qüdrətli çağlarında Kürdən cənubda olan Azərbaycan vilayətləri, Ərməniyyə, Diyarbəkir, Şərqi Gürcüstan, Ərəb İraqı, Mazandaran və Xorasan istisna olmaqla İranın qalan vilayətlərini əhatə edirdi.

**Səfəvilər dövləti.**
Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Səfəvilər dövlətinin banisi Şah İsmayıl (1501-1524) olmuşdur. Səfəvilər dövlətinin paytaxtı Təbriz şəhəri idi. XVII əsrdə Şərqi Gürcüstan istisna olmaqla Azərbaycan inzibati idarə sistemi Səfəvi imperiyasının bütün şimal-qərb hissəsini əhatə edirdi: əhalinin dörddə üç hissəsi, yəni əsasən azərbaycanlılardan ibarət olan indiki Ermənistan - Çuxursəd bəylərbəyliyi də Azərbaycana daxil idi. Azərbaycanda dörd bəylərbəylik var idi: Təbriz, Çuxursəd, Qarabağ və Şirvan.

### *XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi*

XVIII əsrin ikinci yarısında mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən feodallar arasında gedən müharibələr nəticəsində Azərbaycan ərazisində feodal dövlətləri - xanlıqlar meydana gəldi.

**Şəki xanlığı.** 1744-cü ildə Hacı Çələbi Qurban oğlu tərəfindən yaradılmışdır.

**Qarabağ xanlığı.** 1748-ci ildə Pənahəli xan tərəfindən əsası qoyulmuşdur.

**Quba xanlığı.** 1772-ci ildə yaranmışdır. Quba xanlığını Hüseynəli xan (1722-1758), sonra isə oğlu Fətəli xan (1758-1789) idarə etmişlər.

Zəngəzur sıra dağlarından Araz vadisinə qədər olan ərazidə **Naxçıvan xanlığı**, Murovdağ silsiləsindən Kür çayınadək **Gəncə xanlığı**, Şirvan düzənliyində isə **Şamaxı xanlığı** yaranmışdı. Abşeron yarımadasında Bakı xanlığı, Kür ilə Araz qovşağında Cavad xanlığı, Xəzərin cənub-qərb sahilində Talış xanlığı, Azərbaycanın cənubunda Təbriz, Xoy, Qaradağ, Sərab, Marağa, Maku xanlıqları yarandı.

XVIII yüzilliyin sonu XIX yüzilliyin əvvəllərində Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri baş tutmadı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi geriliyi, digər tərəfdən isə xarici istilalar, İran və Rusiyanın bu yerlərə qəsbkar yürüşləri mane olurdu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş İran, Türkiyə və Rusiyanın hərbi planlarına qarşı dura biləcək qüvvə yox idi.

Çar Rusiyası yeni torpaqlar zəbt etməyə, tutduğu yerləri Rusiya sənayesi üçün xammal mənbələrinə, satış bazarlarına çevirməyə can atırdı.

1804-1813-cü illərdə I Rusiya-İran və 1826-1828-ci illərdə II Rusiya-İran müharibəsi nəticəsində Azərbaycanın şimal hissəsi rus qoşunları tərəfindən işğal edildi. 10 fevral 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Azərbaycanın Araz çayından şimal hissəsi Rusiya imperiyasının ərazisinə qatıldı.

### *Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir*

1918-ci il mayın 28-də öz müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və bolşeviklərin Azərbaycana hücumu nəticəsində 1920-ci ilin aprelində süqut etdi.

Lakin Azərbaycan xalqının öz dövlətini qurmaq, müstəqil olmaq uğrunda mübarizə əsqini söndürmək mümkün olmadı. 1991-ci ildə xalqımız öz sarsılmaz iradəsi və inadkarlığı sayəsində müstəqilliyinə nail oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktını qəbul etdi. Azərbaycan yenidən müstəqil oldu.

Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dövlətçiliyinin tarixini bilməli və onunla fəxr etməlidir.

Müasir Azərbaycan dövlətçiliyinin banisi, böyük tariximizə daim yüksək qayğı ilə yanaşmış görkəmli dövlət rəhbəri, ümummilli lider Heydər Əliyev cənabları tariximizi öyrənməyi tövsiyə edərək demişdir: "Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Səfəvilər dövləti - bunlar Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. Və nəhayət, XX əsrin əvvəllərində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr - 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf keçmişdir.

Nəhayət, 1991-ci ilin sonunda Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir".

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Layiqli xidmət nümunəsi

...Əməliyyat gedir. Cərrah nələr düşünür? - əsgərin həyatını xilas etməli, döyüşçü öz sırasına qayıtmalıdı, işğala son qoyulmalıdı. Haradasa uzaqlarda, təmas xəttində yenə atışmalar baş verir. Çoxdan həsrətində olduğumuz qələbə tezləşməlidi. Güllə dərinliyə işləyib. Anlar ötüşür...

Əməliyyatı da uğurla başa vurur...

Yaxınlıqdakı stulda oturur. Alnının tərini silir. Yuxusuzluq öz hökmünü göstərir. Sərin bir yaz günüdü. Dan yeri sökülüb, günəşin şüaları Kürün sakit axımına ayrı bir ahəng qatıb.

Gözlərindəki işıq əzəli və əbədi bir sevginin, Vətən sevgisinin nurudu. Bu sevgiyə köklənib, bu sevgiyə tapınıb, dünyanın dolaşıq yollarından ayırıb öz yolunu Elgün həkim.



Silahlı Qüvvələrin Baş Klinik Hospitalının torakoabdominal cərrahiyyə bölməsinin ordinatoru, tibb xidməti kapitanı Elgün Səmədovun nurlu siması, həyat eşqi ilə döyünən qəlbi, baxışlarından oxunan xeyirxahlıq, qayğıkeşlik hamıda xoş əhval-ruhiyyə yaradır.

1983-cü ildə Bakı şəhərində anadan olub. Yaxın qohumlarının əksəriyyətinin tibb sahəsində çalışması elə uşaq yaşlarında Elgündə bu sahəyə böyük maraq oyatmışdı. Dayısı İbrahim Cəfərov Salyan rayonunun tanınmış cərrahlarındandır. Dayısına yaxınlaşıb minnətdarlıq edənlərin, sağlamlığına görə ona borclu olduğunu bildirənlərin gözlərində sözlərlə ifadə olunmayan sevginin dəfələrlə şahidi olub. Bu da Elgünün sənət seçiminə təsirsiz ötüşməyib.

Elgün orta məktəbi bitirib Azərbaycan Tibb Universitetinə daxil olur. Yaşadığı həyatda özünü Vətənin bir parçası bilənlər ona layiq olmağa çalışırlar. Uşaqlıq illərindən müharibə ovqatında olan bu gəncin qəlbinin dərinliklərindəki izaholunmaz hisslər hərbi tibb fakültəsində təhsil almasına səbəb olub. 2006-cı ildə təhsilini başa vurduqdan sonra tibb xidməti leytenantı olaraq cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmətə başlayır. 2008-2009-cu illər cərrahiyyə üzrə internatura keçdikdən sonra bir müddət xidmətini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tibb məntəqəsində davam etdirir. 2011-2015-ci illərdə Gülhanə Hərbi Tibb Akademiyasında ümumi və onkoloji cərrahiyyə üzrə təkmilləşmə kursu keçir. 2015-ci ildən isə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının torakoabdominal bölməsinin ordinatorudu.

Aprel döyüşlərindən söz düşəndə Elgün həkimin çöhrəsində xoş bir təbəssüm yarandı. "Onda itkilərimiz də oldu. Amma döyüş mövqelərində hadisələrin şahidi olaraq tam məsuliyyətimlə deyirəm: tibb ocaqlarına çatdırılan bir yaralımız belə həyatını itirmədi. Ali Baş Komandanın hər bir əmrinə bu gün də, sabah da hazırıq".

Aprel döyüşlərində ön xəttə ezam olunan təcrübəli cərrah "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub. Həmin günlərdə keçirdiyi hissləri, təəssüratları bölüşən həkim deyir ki, bu qüruru nə xidməti dövründə, nə də Gülhanədə 12 saat çəkən əməliyyatdan sonra yaşamamışdı. O əməliyyatdan sonra Gülhanə Hərbi Tibb Akademiyasının komandanlığı ona təşəkkür etmişdi. Aprel döyüşlərində yaşanan hissləri sözlə ifadə etmək mümkünsüzdür.

Həkim ölkə daxilində və xaricində keçirilən bir çox konfranslarda iştirakından söz açaraq qeyd etdi ki, 2014-cü ildə Budapeştdə, 2015-ci ildə Afinada və Türkiyədə dəfələrlə bu və ya digər mövzularda məruzələrlə çıxış edib. Tibbi araşdırmalar da aparır. Həkimlik daim öyrənməyi, təkmilləşməyi, müasir üsulları axtarmağı tələb etdiyindən bu tədbirlər onların peşə hazırlığında mühüm rol oynayır.

Ən böyük xoşbəxtliyi xəstələrini yenidən həyata qaytarmasında görür Elgün həkim. "Son ümidini itirmək üzrə olan xəstənin göz yaşlarına qərq olmuş yaşam sevincini, minnətdarlıq dolu baxışlarını heç nə ilə əvəz etmək mümkün deyil," - təcrübəli cərrah belə deyir.

Səmimiliyi, mehribanlığı insanlara sevgisinin təzahürüdü. Millətini, Vətənini sevən tibb xidməti kapitanı ümummilli liderimiz Heydər Əliyevin "Mən dünyada müəllim adından yüksək, şərəfli bir ad tanımıram" kəlamını xatırladaraq həyatda qazandığı bütün uğurlarına, əldə etdiyi nailiyyətlərə görə müəllimlərinə minnətdar olduğunu deyir.

Qazanılmış nailiyyətlərlə kifayətlənməmək, daim irəliyə getmək xüsusiyyətləri Elgün həkimi bu gün də xarici ölkələrdəki həmkarları ilə sıx əməkdaşlıq əlaqələri saxlamağa sövq edir. O, həmçinin Beynəlxalq Avropa Cərrahlarının Onkoloji Dərnəyinin və Avropa Kolo-Proktoloji dərnəyinin üzvüdür.

Xəstələrinə bəslədiyi səmimiyyət və mehribanlıq, alicənablıq və xeyirxahlıq, məsuliyyət və cavabdehlik də onun xarakterini səciyyələndirən xüsusiyyətlərdir.

Vətənpərvərlik və bəşərilik insanın daxilindəki duyğulardır. Və milli mənlik şüuru ilə birbaşa əlaqədardır. Elgün həkimin timsalında özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir şəxs əməli fəaliyyətini də məhz xalqına və Vətəninə layiqli xidmətində hiss etməlidir.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

---

*Gənc zabitlərimiz*

# İdeoloji cəbhədə də üstünlük bizimdir



*Azərbaycanda böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyəsi başlıca prioritet hesab edilir. Bu məqsədlə təhsil müəssisələrinin bütün pillələrində gənc nəslə vətənpərvərlik ruhu aşılanır, onlarda Vətənə, dövlətə məhəbbət hissi tərbiyə olunur. Şübhəsiz, bu sahədə hərbi təhsilin də xüsusi rolu var. Müstəqil dövlətin atributlarından olan Silahlı Qüvvələrin formalaşmasında hərbi təhsil sisteminin müstəsna əhəmiyyətini qeyd etmək lazımdır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi bu yöndə fəaliyyət göstərən təhsil ocaqlarından biri olaraq savadlı, bacarıqlı hərbi kadrların hazırlanmasında əsas baza rolunu oynayır.*

Taqım komandiri leytenant Qadir Musayev əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirib, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisasına yiyələndiyi zaman fərqləndiyinə görə onu 2016-cı ildə təhsil aldığı tədris ocağında saxlayıblar. Tərcüməçilik ixtisası üzrə çalışan peşəkar hərbçiyə görə, kursantların əsas vəzifələrindən biri də xarici dilləri, habelə düşmənin dilini dərindən öyrənməkdir. "Yeni ixtisas olmağına baxmayaraq, bizdə erməni dili tam tədris olunur. Əsas odur ki, bu gün kursantlar xüsusi tədris proqramı ilə bu dili öyrənirlər. Dili tədris edənlər isə kifayət qədər hazırlıqlı mütəxəssislərdir. Qısa müddət keçməsinə baxmayaraq, kursantlarımız erməni dilində yazmağı və oxumağı bilirlər. Eyni zamanda erməni dilinin mənimsənilməsi işğalçıların geniş və hərtərəfli öyrənilməsinə imkan verir." Çoxları kimi, general olmaq arzusu ilə yaşayan leytenant Musayev istəyinin həyata keçməsində peşəkarlığın böyük əhəmiyyətə malik olduğunu qeyd etdi. Ən başlıcası isə torpaqlarımızın düşmən tapdağından azad edilməsi prosesində yaxından iştirak etmək istəyini vurğuladı. Buna görə də aprel döyüşlərinin iştirakçısı olmadığını təəssüf hissi ilə bildirdi. Hərbçi olmağı ilə fəxr edən zabit indiki dərs prosesi ilə özünün kursant olduğu dövrü müqayisə etməyə çalışdı: "Əvvəlki illərlə müqayisədə praktiki məşğələlərə, dərslərə xüsusi önəm verilir. Nəzəri dərslər gördüyünüz təhsil ocağında keçirildikdən sonra çöl çıxışlarında - təlim mərkəzində praktiki vərdişlər artırılır. Təlim və Tədris Mərkəzində bu məqsədlə geniş imkanlar yaradılıb.

Aprel döyüşləri sübut etdi ki, tək ön cəbhədə deyil, ideoloji cəbhədə də düşməndən üstünük. İnformasiya sahəsində də düşmənin bütün təxribatlarının qarşısı qətiyyətlə alınır. Yaxşı bilirik ki, qələbəmizə daha tez çatmaq üçün ideoloji cəbhədə də üstünlük çox vacibdir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

# Xəbərlər:
## hadisələr, faktlar

### Rusiya Prezidenti 16 generalı vəzifəsindən azad edib



Rusiya Prezidenti Vladimir Putinin fərmanı ilə bu ölkənin Fövqəladə Hallar Nazirliyinin (FHN), Daxili İşlər Nazirliyinin (DİN) və Təhqiqat Komitəsinin 16 generalı vəzifədən azad edilib. Hələlik kadr dəyişikliklərinin səbəbi ilə bağlı heç bir məlumat verilməyib.

Vəzifəsindən azad edilənlər arasında Rusiyanın FHN-nin Şimali Qafqaz regional mərkəzinin rəisi Nikolay Lityuk, Ural regional mərkəzinin rəisi Sergey Miroşniçenko, Privoljye regional mərkəzinin rəisi İqor Panşin və Uzaq Şərq regional mərkəzinin rəisi Aleksandr Solovyov da var.

Eyni zamanda, Prezidentin fərmanı ilə Vladlen Aksyonov və Pavel Barışev fövqəladə hallar nazirinin müavinləri təyin ediliblər.

### Rumıniyada iğtişaşlar zamanı xəsarət alan və saxlanılanlar var



Rumıniyanın paytaxtı Buxarestdə hökumət əleyhinə keçirilən nümayiş polislə qarşıdurma ilə nəticələnib.

Kütləvi iğtişaşlar zamanı 4 nəfər yaralanıb.

Xəsarət alanlardan ikisi etirazçı, ikisi isə polis əməkdaşıdır. Bir neçə nəfər polis tərəfindən saxlanılıb. Yüz mindən çox insanın qatıldığı etiraz aksiyasına səbəb hökumətin cinayət məcəllesində etdiyi dəyişikliklər və amnistiya haqqında qərarı olub.

### ABŞ-ın yeni dövlət katibinin adı açıqlanıb



ABŞ Senatı Reks Tillersonun dövlət katibi postuna namizədliyini təsdiqləyib.

R.Tillerson ABŞ-ın sayca 69-cu dövlət katibi olub.

Qeyd edək ki, bundan əvvəl R.Tillerson "ExxonMobil" şirkətinə rəhbərlik edib.

### Meksikada silahlılar 6 nəfəri öldürüblər



Meksikanın Qerrero ştatında yerləşən Moçitlan və Laqunilyas şəhərləri arasındakı yolda 6 nəfərin meyiti tapılıb.

Meyitlərin üzərində güllə yaraları aşkarlanıb. Polis faktla bağlı araşdırmalara başlayıb.

### "Fərat qalxanı" əməliyyatının 163-cü günündə 51 İŞİD yaraqlısı öldürülüb



Türkiyə Silahlı Qüvvələri və Suriya müxalifəti "Fərat qalxanı" əməliyyatı çərçivəsində ötən sutka ərzində 51 İŞİD yaraqlısını öldürüb. Bu barədə Türkiyə Silahlı Qüvvələrinin baş qərargahından bildiriblər.

Türkiyə Hərbi Hava Qüvvələri Əl-Bab, Tadif, Kabbasin və Bzagah bölgələrində İŞİD-ə məxsus 85 hədəfə zərbə endirib. Yerüstü atəş vasitələri isə qruplaşmanın 244 hədəfini vurub. Nəticədə yaraqlıların sığınacaq kimi istifadə etdiyi 83 bina, 10 minalanmış avtomobil, 2 silah anbarı və 2 top məhv edilib. Hava zərbələri və toqquşmalarda İŞİD qruplaşmasının 51 yaraqlısı öldürülüb.

Xatırladaq ki, 2016-cı il avqustun 24-də başlayan "Fərat qalxanı" əməliyyatı Suriyanın şimalındakı əraziləri İŞİD qruplaşmasından təmizləmək məqsədi daşıyır. Son iki ayda əməliyyatlar Əl-Bab şəhəri və ətrafında cəmlənib.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi təhsil*

# Sabahın vətənpərvər zabitləri

*C.Naxçıvanski adına Hərbi Liseydə birinci yarımilliyin imtahanlarını başa çatdıqdan sonra əlaçı kursantlarla görüşüb söhbət etdim.*



İlk həmsöhbətim kursant Rəsul Əlili oldu. Rəsul Biləsuvar rayonunun Çaylı kəndində anadan olub. Orduya, hərbi xidmətə olan həvəs onu C.Naxçıvanski adına Hərbi Liseyə gətirib. O, qəbul imtahanında 465 bal toplayıb.

"Məqsədim gələcəyin bilikli, bacarıqlı zabiti olmaqdır. Buna görə də dərs və məşğələlərdə fəal iştirak edərək biliklərə dərindən yiyələnirəm", - dedi kursant Rəsul Əlili. Öyrəndim ki, atası Emin Əliyev Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. Ağdam, Ağdərə və Tərtər uğrunda vuruşub, torpaqlarımızın müdafiəsində dayanıb.

İkinci kursda keçirilən imtahanlarda ən yaxşı nəticə göstərən kursantlardan biri də Elçin Əsgərov olub. Yardımlı rayonunun Şıxlar kəndində dünyaya göz açan Elçin kiçik yaşlarından hərbçi peşəsinə böyük maraq göstərib. Ömrünü bu müqəddəs peşəyə bağlamaq məqsədi ilə sənədlərini C.Naxçıvanski adına Hərbi Liseyə verib. Qəbul imtahanlarında 613 bal toplayaraq təhsil ocağına daxil olub. "Arzuma, istəyimə çatdığıma görə sevinc içindəyəm. Bir il ötüb arxada qaldı. İndi ikinci kursda oxuyuram. İmtahanlarda ən yaxşı nəticə göstərənlərdən biri olmağımdan qürur duyuram. Qazandığım uğurlar məni arxayınlaşdırmır. Tətildən qayıtdıqdan sonra daha da həvəslə oxuyacağam. Düşünürəm ki, gələcəyin zabiti daha savadlı, daha hazırlıqlı olmalıdır".

- Mənim doğum şəhadətnaməmə Füzuli rayonunun İşıqlı kəndində anadan olduğum yazılıb, - deyə kursant Vüsal Allahverdiyev də söhbətimizə qoşuldu. - 1993-cü ildə erməni işğalçıları valideynlərimi də doğma ocaqlarından didərgin salıblar. Uşaqlığımdan yaddaşımda yalnız ağrılı-əzablı günlər qalıb. Ötən illər ərzində bir neçə yaşayış yeri dəyişmişik. Bütün bu əzabların baiskarları erməni işğalçılarıdır. Ona görə də erməni qəsbkarla-





rına nifrətim böyükdür. Biz düşməni məğlub edib torpaqlarımızı işğalçılardan azad edəcəyik. Buna görə də dərslərimi böyük həvəslə oxuyuram. Burada təhsil almaq üçün yaxşı şərait var. Müəllimlərimiz də çox tələbkardırlar. İmtahanlarda yüksək nəticə göstərdiyimə görə valideynlərimin, doğmalarımın yanına başıuca qayıdıram.

Kursantlarla söhbətimdən əmin oldum ki, gələcəyimizin zabitləri bilikli və bacarıqlı olacaqlar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Redaksiyamızın poçtundan*

# Mən də Azərbaycan gənciyəm

Hər il fevralın 2-si bizim günümüzdü, yeni gənclərin günüdü. Bu günümüzün təsis olunmasında, ən başlıcası gənclərin təşkilatlanmasında ulu öndərimiz Heydər Əliyevin müstəsna xidmətləri olub.

Dahi rəhbər ölkəmizdə siyasi hakimiyyətinin bütün dövrlərində gənclərə güvənib, onlara cəmiyyətin bütün sahələrində qolqanad verib. Onun siyasi irsini öyrəndikcə Azərbaycan gəncliyinə necə böyük diqqət və qayğı göstərdiyinin şahidi oluruq.

Gəncləri cəmiyyətin aparıcı qüvvəsi hesab edən Ulu Öndər yaxşı bilirdi ki, sabaha gedən yol gənclikdən keçir, yeni gənclərə güvənmədən heç bir sahədə uğur qazanmaq olmaz. Dövlət rəhbərliyinin etimadından ruhlanan Azərbaycan gəncləri tarixin bütün dövrlərində hünər və qəhrəmanlıq nümunələri göstəriblər.

Müasir dövrümüzdə də Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev gənclər üçün böyük işlər görür, onlara bütün sahələrdə yüksək etimad göstərilir. Bu gün cəmiyyətimizdə elə bir sahə yoxdur ki, orada gənclər layiqincə təmsil olunmasınlar.

Bu xalqın, bu dövlətin bir gənc vətəndaşı olaraq mən də qürurluyam ki, doğma ordumuzun sıralarında şərəflə xidmət edən minlərlə, on minlərlə gəncimiz Vətənimizi düşməndən layiqincə qoruyur. Dövlət başçımızın qeyd etdiyi kimi, 2016-cı ilin aprel döyüşləri Azərbaycanda gözəl bir nəslin, vətənpərvər nəslin yetişdiyini dünyaya bəyan etdi. Doğrudan da, düşmənlə üzüzə mövqeləri qoruyan gənclərimiz qəhrəman bir xalqın övladları olduqlarını məhz aprel döyüşlərində bir daha sübuta yetirdilər. Mən də qürurluyam ki, Azərbaycan gənciyəm.

**Səkinə PƏNAHOVA,**
**ADPU-nun tələbəsi**

# Hərbi ənənələr, yeniliklər

## "Drel" bombası



Porxaçevin rəhbərlik etdiyi Rusiyanın "Bazalt" müəssisəsində dünyada analoqu olmayan "Drel" aviasiya bombası kəşf ediblər. Verilən məlumata görə, bu bomba başqalarından onun mühərrikinin olmaması və 30 kilometrlik məsafədən yavaş-yavaş enməsidir. Bu o deməkdir ki, təyyarə riskli HHM zonasına düşmədən bombanı atıb qayıtdıqdan sonra bomba hədəfi özü taparaq məhv edir. İxtiraçının sözlərinə görə, planlı "Drel" aviabombasının naviqasiyası QLONASS peyk sistemi vasitəsilə həyata keçiriləcək və bu yaxınlarda onun sınağı baş tutacaq. Bundan başqa bir sıra müəssisələr tərəfindən dünyada analoqu olmayan yeniliklər həyata keçirilib. Saniyədə 500 metrlik yüksək sürətlə uçan mərmi partlayışından insan bədənini qorumaq üçün unikal odeyaldan, təyyarə cihazlarını və raket komplekslərini radio-elektron mübarizə vasitələrindən qorumaq üçün ferromaqnit yarımkeçirici lifdən istifadə ediləcək. Daha sonra İl-76 nəqliyyat təyyarəsinin bazasında yeni hərbi təyyarə yaradılacaq ki, o yeni lazer silahı ilə təchiz ediləcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Buzadırmanma üzrə açıq ölkə çempionatı keçiriləcək




Gənclər və İdman Nazirliyinin dəstəyi və Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə fevralın 4-5-də Qusarda buzadırmanma üzrə açıq ölkə çempionatı keçiriləcək.

Yarışda 16 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər. Çempionat ölkəmizdə ekstremal idman növlərini inkişaf etdirmək, gəncləri bu idman növlərinə cəlb etmək, beynəlxalq yarışlarda iştirak edəcək yığma komandanın formalaşması məqsədi daşıyır.

Yarış çətinlik və sürət növü üzrə Beynəlxalq Dırmanma və Dağçılıq Federasiyasının qaydalarına əsasən keçiriləcək. Buzadırmanma yarışının qaydalarına əsasən, qalib şəxsi hesablamada ümumi balların cəminə görə, komanda yarışında isə komanda üzvlərinin ümumi ballarının cəminə əsasən müəyyən olunur. Ümumi nəticələrə əsasən müəyyən olunmuş qaliblər Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən hədiyyələr, kubok, medallar və müvafiq diplomlarla mükafatlandırılacaqlar.

## Qətər-Azərbaycan yoldaşlıq oyununun məkanı və vaxtı müəyyənləşib



Futbol üzrə Azərbaycan millisinin Qətər yığması ilə keçirəcəyi yoldaşlıq görüşünün məkanı və vaxtı müəyyənləşib.

Oyun martın 9-da Doha şəhərindəki "Jassim Ben Hamad" stadionunda keçiriləcək. Görüş Bakı vaxtı ilə 20:00-da (yerli vaxtla 19:00) start götürəcək.

Oyun hər iki komanda üçün dünya çempionatının seçmə mərhələsinə hazırlıq xarakteri daşıyır.

## Azərbaycan triatlonçusu beynəlxalq reytinq cədvəlindəki mövqeyini qoruyub




Beynəlxalq Triatlon İttifaqı idmançıların növbəti reytinq cədvəlini açıqlayıb.

Azərbaycan milli komandasının üzvü Rostislav Pevtsovun reytinq cədvəlindəki mövqeyi dəyişməyib. Belə ki, R.Pevtsov 3209,77 xalla 17-ci pillədədir.

Reytinq cədvəlinə ispaniyalı Mario Molaya liderik edir. Böyük Britaniya təmsilçisi Conatan Braunli ikinci, digər ispaniyalı triatlonçu Fernando Alarza isə üçüncüdür.

## Azərbaycan idmançıları İtaliyada keçirilən beynəlxalq turnirdə medallar qazanıblar



İtaliyanın Liqnano şəhərində cüdo idman növü üzrə ənənəvi "Alpe Adrea" beynəlxalq turnir keçirilib.

Azərbaycanın yığma komandasının da iştirak etdiyi bu turnirdə Avropanın müxtəlif ölkələrindən mindən artıq cüdoçu mübarizə aparıb.

İki gün davam edən turnirin nəticələrinə əsasən, Təhsil Nazirliyinin 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin yetirmələri yüksək nəticələr qazanıblar. Hacı Musayev, Naim Hüseynov 55 və 81 kiloqram çəki dərəcələrində qızıl, Tofiq Məmmədov və Şamir Məmmədov 60 və 81 kiloqram çəki dərəcələrində bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Əbülfət QASIMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 39 Nüsxə 4650 |